*Azərbaycan xalqının dahi lideri Heydər Əliyevin dediyi kimi, İlham Əliyev yüksək intellektə malik, praqmatik düşüncəli, dünya siyasətinə və iqtisadiyyatına dərindən bələd, enerjili və təşəbbüskar bir liderdir. Onun kimi şəxsiyyətin inkişaf yolunda olan Azərbaycana rəhbər seçilməsi bütün dünyada sabitlik, rifah və sülh tərəfdarı olan dairələr tərəfindən təbii bir hadisə kimi qəbul edilmişdir.*

*2003-cü il 31 oktyabr tarixində Respublika sarayında keçirilən təntənəli andiçmə mərasimi Azərbaycanın yeni dövrə qədəm qoyduğunu simvolizə edirdi. Bayram əhvali-ruhiyyəsində olan bu məkan Milli Məclis üzvləri, siyasi partiyalar, ictimai təşkilatlar, gənclər, hərbçilər və din xadimləri kimi müxtəlif təbəqələri bir araya toplamışdı. Mərasimdə, həmçinin xarici ölkələrdən gəlmiş yüksək səviyyəli qonaqlar və səfirlər də iştirak edirdi.*

# Zəfərlərlə dolu 21 il - inkişaf və tərəqqidə Lider əməyi





Rəsmi açılış mərasimindən sonra Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin əsgərləri dövlət bayrağını təntənəli marş sədaları altında səhnəyə gətirdilər. Səhnədə Azərbaycan Respublikasının Konstitusiyası ilə müqəddəs "Qurani-Kərim" yanaşı qoyulmuşdu ki, bu da mərasimin mənəvi dəyərini və hüquqi əsasını bir daha vurğulayan xüsusi məqam idi. Bu təntənəli mərasim Azərbaycanın xalqın etimadını qazanmış liderinə - İlham Əliyevə dövlətin ən yüksək vəzifəsini əmanət edərək ölkəmizi daha parlaq gələcəyə aparacağına olan inamını təsdiqlədi.

Nəzərə almaq lazımdır ki, İlham Əliyevin 2003-cü ildə Prezident seçilməsi beynəlxalq siyasətdə qaynar hadisələrin cərəyan etdiyi gərgin və mürəkkəb bir dövrə təsadüf edirdi. 2001-ci il 11 sentyabr terror hücumundan sonra dünya nizamı dəyişməyə başlamışdı. Eyni zamanda Cənubi Qafqazda və ona yaxın regionlarda ardıcıl "rəngli inqilablar" dalğası baş qaldırmışdı. Məhz bu qlobal təzyiq və təlatümlər fonunda cənab İlham Əliyev böyük siyasi uzaqgörənliklə Azərbaycanın müstəqilliyini və təhlükəsizliyini qoruyub saxlayaraq regionda sabitlik və inkişaf yolunu təmin etdi.

Bunun nəticəsidir ki, bütün sahələrdə praqmatik addımlar atıldı. İqtisadi, siyasi, sosial və mədəni islahatların keçirilməsi gələcək təhlükələrə qarşı hazırlıq prosesini sürətləndirdi. Xüsusilə, 2003-cü ildən bəri ölkəmizdə başlanan ordu quruculuğu prosesi, hərbi hazırlığın artırılması tədbirləri Qarabağ münaqişəsi ilə bağlı xarici qüvvələrin mövcud əminliyini kökündən dəyişdi. Qısa müddətdə güclü müdafiə sənayesi quruldu və Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasında yer aldı. Bu, yalnız döyüş qabiliyyətinin artırılması deyil, həm də maddi-texniki bazanın ardıcıl olaraq möhkəmləndirilməsi hesabına baş verdi. Hələ 2003-cü ildə andiçmə mərasimində Prezident İlham Əliyev demişdi: "Azərbaycanın çox güclü ordusu olmalıdır". Bu uzaqgörən və praqmatik bəyanatlar gerçəyə çevrildi. O zaman erməni lobbisi və onların havadarları bu sözlərə təəccüb və istehza ilə yanaşsa da, 44 günlük Vətən müharibəsində Azərbaycan öz gücünü bütün dünyaya sübut etdi.

2020-ci il Azərbaycan tarixinə "Qələbə ili" kimi həkk olundu. Şanlı Azərbaycan Ordusunun qəhrəmanlığı sayəsində Ermənistan ordusu darmadağın edildi və ölkəmizin ərazi bütövlüyü bərpa olundu. "Qarabağ Azərbaycandır!" şüarı ilə qazanılan bu parlaq qələbə Prezident İlham Əliyevin diplomatik ustalığı, güclü siyasəti və xalqın əzmi ilə reallaşdı. Bu zəfər "Dəmir Yumruğ"un gücünü, haqqın qələbəsini bir daha dünyaya nümayiş etdirdi. Bu sadəcə bir zəfər deyildi; bu, Azərbaycanın suverenliyinin, milli iradəsinin və liderliyinin təntənəsi idi. Vətən müharibəsinin sonunda Ali Baş Komandan İlham Əliyevin xalqımıza "Biz öz Vətənimizə, doğma Qarabağımıza qayıdırıq!" müjdəsi milyonlarla azərbaycanlının ürəyində əbədi yaşayacaq bir sevincə çevrildi.

Prezident İlham Əliyevin xarici siyasəti Azərbaycanı regionun lider dövlətinə çevirməsi üçün möhtəşəm bir yol açdı. Dövlət başçısı əvvəlcə qarşıya çıxan çətin sınaqlara qarşı doğru strategiya ilə yanaşaraq ölkəni gücləndirdi. Azərbaycanın strateji əhəmiyyətini artıran nəhəng layihələrə imza atmaqla dünya arenasında mövqeyini möhkəmləndirdi. Ən önəmlisi isə diplomatik və hərbi gücünü birləşdirərək işğal altındakı torpaqları azad etdi, bununla da milli qürurumuzu bərpa etdi və Azərbaycan üçün yeni hədəflər müəyyənləşdirdi.

Ötən illərin təcrübəsi göstərir ki, xalqın İlham Əliyevə göstərdiyi dəstək dərin bir inamdan qaynaqlanır. Prezident dövlət siyasətinin prioritetlərini milli maraqlar əsasında formalaşdırır, cəmiyyətin sosial tələblərinə həssaslıqla yanaşır. Məhz bu yanaşma dövlət siyasətində xalqın və ölkənin maraqlarının üstün tutulmasını təmin edir, xalq-iqtidar birliyini möhkəmləndirir. Uzun illər ərzində qorunan daxili sabitlik və sarsılmaz xalq-iqtidar həmrəyliyi Azərbaycanın hər sahədə uğur qazanmasında əsas olmuşdur.

Ümumiyyətlə, Azərbaycan İlham Əliyevin liderliyi sayəsində regional gücə çevrildi və regionun taleyini müəyyən edən əsas oyunçulardan biri oldu. Azərbaycan artıq əməkdaşlıq məkanıdır. Qarabağ zəfərindən sonra regionda sülh və əməkdaşlığa çağırış edən İlham Əliyev Azərbaycan dövlətinin liderlik məsuliyyətini ən yüksək səviyyədə yerinə yetirməyə hazır olduğunu bir daha dünyaya nümayiş etdirdi.

Prezident İlham Əliyevin qətiyyətli rəhbərliyi ilə Azərbaycan həm daxildə, həm də beynəlxalq arenada sürətli inkişaf yolu keçdi. Ölkənin hər sahədə qazandığı nailiyyətlər xalqımızın rifahını artırdı, Azərbaycanın siyasi və iqtisadi imkanlarını genişləndirdi, regionda və dünyada mövqeyini möhkəmləndirdi. Artıq regionda həyata keçirilən bütün böyük layihələr Azərbaycanın iştirakı və milli maraqları nəzərə alınaraq icra olunur.

**Nurlan ABDALOV,**
**"Respublika".**